*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 111–115
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 111–115
DOI: https://doi.org/10.36719/2789-6919/58/111-115

# İrəvanın maarifçi qadınları

**Nuranə Teymurlu**

***Xülasə.*** *Məqalədə XIX əsrin sonu-XX əsrin əvvəlləri və sovet dövrünün ilk onilliklərində İrəvan maarif mühitində fəaliyyət göstərmiş qadın ziyalılarımız və pedaqoqların həyat və fəaliyyəti sistemli şəkildə tədqiq olunmuşdur. Qeyd edilmişdir ki, bu dövrdə Azərbaycan qadın hərəkatının regional inkişaf modelinin formalaşmasında özünəməxsus rol oynayan qadın pedaqoqlar həm tədris-pedaqoji, həm ictimai-mədəni, həm də siyasi-dövlət sahələrində fədakar əmək sərf etmişlərdir. Onlar İrəvanda fəaliyyət göstərən qızlar məktəblərində müəllim, müdir və direktor kimi çalışmaqla, eyni zamanda, İrəvan Azərbaycanlı Qadınlar klubunun (1926) yaradılması və inkişafı vasitəsilə qadın təhsilinin və mədəni-maarif hərəkatının formalaşmasına dəyərli töhfə vermişlər. Tədqiqatda bu nəslin pedaqoji yolunun mərhələləri, fəaliyyət sahələrinin çoxsahəliliyi, 1937-1938-ci illərin repressiyalarının və 1948-ci il deportasiyasının onların taleyinə təsiri kimi məsələlər də ardıcıl şəkildə araşdırılır. Məqalənin başlıca nəticəsi bu nəslin ömürlük pedaqoji sədaqət, çoxsahəli ictimai fəaliyyət, milli mədəniyyətə bağlılıq və müasir dünyəvi təhsilə açıqlıq prinsipləri ilə xarakterizə olunması, eyni zamanda, müasir Azərbaycan qadın hərəkatının inkişafı və qadın təhsili siyasətinin formalaşdırılması üçün dəyərli tarixi-pedaqoji istinad bazası rolunu oynamasıdır.*

***Açar sözlər:*** *İrəvan maarifçiliyi, qadın maarifçilər, Azərbaycanda qadın təhsili, İrəvan Pedaqoji Məktəbi, qadınlar klubu*

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: teymurlunurane@gmail.com
Daxil oldu: 8 Fevral 2026; Qəbul edildi: 14 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Enlightened Women of Irevan

**Nurana Teymurlu**

***Abstract.*** *The article systematically studies the life and activities of our female intellectuals and educators who worked in the Irevan educational environment in the late 19th and early 20th centuries and the first decades of the Soviet era. It is noted that during this period, female educators, who played a unique role in the formation of the regional development model of the Azerbaijani women's movement, devoted themselves to both educational and pedagogical, social and cultural, and political and state spheres. They made a valuable contribution to the formation of women's education and cultural and educational movement by working as teachers, principals and directors in girls' schools operating in Irevan, and at the same time through the creation and development of the Irevan Azerbaijani Women's Club (1926). The study also systematically examines issues such as the stages of the pedagogical path of this generation, the versatility of their fields of activity, and the impact of the repressions of 1937-1938 and the deportation of 1948 on their fate.*

*The main conclusion of the article is that this generation is characterized by lifelong pedagogical devotion, multidisciplinary social activity, commitment to national culture, and openness to modern secular education, while also serving as a valuable historical and pedagogical reference base for the development of the modern Azerbaijani women's movement and the formation of women's education policy.*

**Keywords:** *Irevan enlightenment, women educators, women's education in Azerbaijan, Irevan Pedagogical School, women's club*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: teymurlunurane@gmail.com
Received: 8 February 2026; Accepted: 14 May 2026; Published online: 30 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İrəvan şəhərinin və ətraf bölgələrinin təhsil-maarif tarixi əsrlərlə davam edən zəngin və çoxqatlı bir mənzərə təşkil edir. Hələ XVIII-XIX əsrlərdə bu bölgədə mədrəsə, mollaxana və evdə təhsil ənənələri geniş yayılmış, dini-əxlaqi tərbiyə ilə yanaşı klassik şərq ədəbiyyatı, ərəb-fars dilləri, hesab və xəttatlıq tədris olunmuşdur. XIX əsrin ikinci yarısından, xüsusən Rusiya imperiyasının Cənubi Qafqazda yeni təhsil sistemi qurmağa başlamasından etibarən İrəvanda dünyəvi tipli təhsil müəssisələri açılmağa başlamışdır. 1881-ci ildə Zəngibasar mahalının Uluxanlı kəndində fəaliyyətə başlayan ilk yeni tipli kənd məktəbi, sonradan İrəvan şəhərində açılan rus-tatar oğlan və qız məktəbləri, İrəvan Kişi Gimnaziyası, İrəvan Qızlar Gimnaziyası bu yeni təhsil mənzərəsinin əsas qurumları olmuşlar. 1881-ci ildə təsis edilmiş İrəvan Müəllimlər Seminariyası isə bütün Cənubi Qafqaz üçün pedaqoji kadrların hazırlanmasında özünəməxsus rol oynamış və onun məzunları sonradan Azərbaycanın bir çox bölgələrində milli təhsilin inkişafına xidmət göstərmişlər (Məhərrəmov, 2010; Məhərrəmov, 2018; Rüstəmov, 2018; Rüstəmov, 2022; Bayramov, 2023).

XX əsrin əvvəllərində İrəvan maarif mühitində xüsusilə əhəmiyyətli hadisələrdən biri 1902-ci ildə açılmış İrəvan rus-müsəlman qız məktəbinin fəaliyyətə başlaması olmuşdur. Bu məktəb müsəlman qızlarının dünyəvi təhsilə cəlb edilməsinin İrəvandakı pioner təcəssümlərindən biri kimi tarixə düşmüşdür. Onun yaradıcıları və ilk müəllim heyəti arasında Məmmədqulu bəy Kərim Soltani, Mirzə Məmmədvəli Qəmərlinski, Yevgeniya Georgiyevna Pxadze və Antonina Valerianovna kimi şəxsiyyətlərin adları çəkilir. Eyni dövrdə şəhərdə rus-tatar oğlan məktəbləri, ibtidai məktəblər, üsuli-cədid əsasında qurulan müsəlman məktəbləri fəaliyyət göstərirdi. Bu çoxnövlü təhsil şəbəkəsi həm dünyəvi-elmi, həm dini-əxlaqi, həm də milli-mədəni tərbiyə istiqamətlərini öz daxilində birləşdirir, İrəvan azərbaycanlı əhalisinin müxtəlif sosial təbəqələrinin təhsil ehtiyaclarını ödəməyə xidmət edirdi. Bu mühit sonradan Mirzə Ələkbər Elxanov, Mirzə Məmmədvəli Qəmərlinski, Haşım bəy Nərimanbəyov, Məmməd bəy Qazıyev kimi maarifçi pedaqoqların formalaşmasına və yetişməsinə əlverişli zəmin yaratmışdır (Allahverdiyev, 2024; Cəfərova, 2023; Həsənova və Allahverdiyev, 2024; Mərdanov, 2011).

İrəvan maarif mühitində qadın maarifçilərin fəaliyyəti Azərbaycan təhsil tarixinin az tədqiq olunmuş, lakin ehtiyac duyulduğu qədər mühüm olan səhifələrindən biridir. XIX əsrin sonu-XX əsrin əvvəllərindən başlayaraq və sovet dövrünün ilk onilliklərində bu bölgədə formalaşmış qadın maarifçilər həm milli pedaqoji ənənənin, həm də Azərbaycan qadın hərəkatının inkişafında özünəməxsus rol oynamışdır. Bu pedaqoqların, Tərlan xanım Sultanova, Bülbül Kazımova, Tacirə Bağırova, Rəziyə Abdullayeva, Sona Bağırova, Fatma Qədimova, Xədicə Kəngərlinski, Fatma Əfəndiyeva, Sona Qocayeva, Kübra Məmmədova və bir çoxlarının bölgədə qadınların təhsilə cəlb

edilməsində, qadınlar arasında maarifləndirilmə işlərinin aparılmasında, bir sözlə müsəlman cəmiyyətində qadın əməyinə yeni baxışın qəbul edilməsində böyük xidmətləri olmuşdur.

**Tədqiqat**

Tərlan xanım Məmmədəli qızı Sultanova da XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan maarif mühitinin görkəmli simalarından birdir. İrəvanda qadın təhsilinin pionerlərindən hesab edilən Tərlan xanım 1890-cı ildə İrəvan quberniyasının Üçmüədzin qəzasının Əkərək kəndində anadan olmuşdur. Onun ibtidai təhsili haqqında kifayət qədər məlumatımız olmasa da, 1913-cü ildə İrəvan şəhərində azərbaycanlı qızlar üçün açılmış 2 nömrəli rus-tatar məktəbində bir müddət müəllim vəzifəsində çalışdıqdan sonra, həmin məktəbin müdiri vəzifəsinə təyin olunduğunu təsdiqləyən mənbələrimiz vardır. Tərlan xanımın doğulduğu Əkərək kəndindən İrəvan şəhərindəki gimnaziyaya keçidi həmin dövrdə kifayət qədər nadir bir hadisə idi və bu, ailəsinin maarifə açıq mövqeyini, eyni zamanda, onun fərdi istedad və əzminin erkən təzahürlərini əks etdirən sübutlardan biridir. Lakin onun fəaliyyəti yalnızca İrəvanla məhdudlaşmamış, sonralar Bakı şəhərinə köçən Tərlan xanım burada 132 nömrəli məktəbdə müəllim və direktor müavini vəzifələrində çalışmışdır. Səmərəli pedaqoji fəaliyyətinə görə "Əməkdar müəllim" fəxri adına və "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülmüşdür (İrəvan ensiklopedik foto-toplusu, 2024).

Digər bir xanım maarifçimiz olan Bülbül Hacı Məmməd Tağı qızı Kazımova 1887-ci ildə İrəvan şəhərində anadan olmuşdur. O, 1914-cü ildə İrəvan rus-müsəlman qız məktəbini bitirmiş, 1918-ci ilin sonlarından İrəvanda müəllimlik fəaliyyətinə başlamışdır (İrəvan ensiklopedik foto-toplusu, 2024). Ömrünün 50 ildən artıq bir hissəsini İrəvanda Azərbaycan ictimai-mədəni həyatının formalaşması və inkişafına həsr etmişdir.

Bülbül xanım Kazımova təkcə müəllim deyil, eyni zamanda, qurucu kimi də fəaliyyət göstərmişdir. Yaşadığı mühitdə məktəblərin, qadın klublarının və mədəniyyət evlərinin əsasını qoyması onun qadın təhsilinə yalnız tədris çərçivəsində deyil, geniş ictimai-mədəni miqyasda yanaşdığını göstərir. Tacirə Cəfər qızı Bağırova (Bağırbəyova) 1913-cü ildə İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan Pedaqoji Texnikumunu, sonra isə Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirmişdir. Bağırova öz dövrünün nadir hadisələrindən biri kimi, qadın pedaqoq olaraq pedaqoji ali məktəbdə pedaqogika və pedalogiya fənlərini tədris edən mütəxəssis olaraq fəaliyyət göstərmişdir. Cəfər Cəfərov və Cəlal Allahverdiyev qeyd edirlər: "*1934-cü illərdə pedaqoji texnikumda... pedaqogika Kərəm Abbasov və pedalogiyadan Tacirə Bağırova, Zəhra Abbasova... kimi işıqlı simalar dərs deyirdilər*" (Cəfərov və Allahverdiyev, 2017).

Akademik Budaq Budaqovun bu dövr haqqında xatirələri Tacirə xanımın pedaqoji ustalığını da əhatə edir: "*İrəvan Pedaqoji məktəbi, oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinədək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi*" (Cəfərov və Allahverdiyev, 2017). Tacirə Bağırova "Əzizbəyov" adına azərbaycanlı məktəbində və İrəvan Pedaqoji məktəbində uzun illər dərs demiş, 1948-ci ildə Azərbaycana deportasiya edildikdən sonra 1950-ci illərdə Azərbaycan Pedaqoji Universitetində, 1954-cü ildə isə Xarici Dillər İnstitutunda müəllim işləmişdir. "Əməkdar müəllim" adına layiq görülən T. Bağırova 1982-ci ildə Bakıda vəfat etmişdir (İrəvan ensiklopedik foto-toplusu, 2024).

Rəziyə Hacı Həsən qızı Abdullayeva 1913-cü il sentyabr ayının 29-da İrəvanda anadan olmuşdur. 1931-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmiş, eyni il İrəvanda pedaqoji fəaliyyətə başlamışdır. 1941-ci ildə İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsinin dil-ədəbiyyat fakültəsinə daxil olmuş, həmin il İrəvanda "Kirov" adına Azərbaycanlı Qızlar məktəbinin direktoru təyin edilmişdir. 1940-cı ildə "Əməkdar müəllim" adına layiq görülən Rəziyə xanım 1953-cü ildə

SSRİ Ali Sovetinin deputatı olmuşdur (İrəvan ensiklopedik foto-toplusu, 2024). Rəziyə Abdullayevanın bioqrafiyası İrəvan qadın maarifçi nəslinin sovet dövrü kontekstində öz inkişaf zirvəsinə çatmasının nümunəsidir. Onun SSRİ Ali Sovetinə deputat seçilməsi yalnız fərdi nailiyyət deyil, dövlət səviyyəsində qadın pedaqoqun mühüm sosial-siyasi rolun tanınmasının ifadəsidir.

İrəvanın digər bir diqqətə layiq qadın maarifçisi Sona Bağırovadır. O, İrəvan Pedaqoji Texnikumunun 1931-ci il 3-cü buraxılışının yeganə qadın məzunu olmuşdur. C.Cəfərov və C.Allahverdiyev yazırlar: "*Texnikumun 1931-ci il buraxılışında məzunlar arasında yalnız bir nəfər gənc qız olmuşdur ki, bu da Sona Bağırova idi. Yeri gəlmişkən onu da qeyd edim ki, Sona Bağırova EPYC-nin azərbaycanlı bölməsinin gənc üzvü kimi İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında müəyyən rol oynamışdır. O, hələ pedaqoji texnikumda təhsil aldığı illərdə "Qızıl şəfəq" qəzeti səhifələrində bədii nümunələr çap etdirir, inqilabdan sonra İrəvanda yaranan Azərbaycan poeziyasının gənc aparıcı nümayəndələrindən biri kimi fəal iştirak edirdi*" (Cəfərov və Allahverdiyev, 2017). O, sonrakı qadın nəsilləri üçün cığır açan pedaqoq olmuşdur.

Beləliklə, İrəvanın maarifçi qadınların həyat və fəaliyyətinin ətraflı təhlili belə qənaətə gəlməyə imkan verir ki, İrəvan qadın maarifçi nəslinin pedaqoji yolu spesifik mərhələlərə malikdir. Birinci nəsil (Tərlan xanım Sultanova, Bülbül Kazımova, Fatma Qədimova) qadın maarifçilərimizin fəaliyyəti XX əsrin ilk onilliyinə təsadüf etmiş, əsas təhsillərini 1902-ci ildə təsis edilən İrəvan rus-müsəlman qız məktəbində və ya İrəvan Qızlar Gimnaziyasında almış, beləliklə də gimnaziya və ya rus-tatar məktəbi səviyyəsində orta təhsil və ya orta-pedaqoji ixtisas əldə etmişlər. XX əsrin ilk onilliyində dünyaya göz açan ikinci nəsil (Sona Bağırova, Tacirə Bağırova, Rəziyə Abdullayeva, Xədicə Kəngərlinski və başqaları) qadın maarifçilərimizin pedaqoji fəaliyəti 30-cu illərə təsadüf edir. Bu nəslin əsas xüsusiyyəti, onların İrəvan Pedaqoji Texnikumunda və ya başqa ali pedaqoji məktəblərdə (Bakı Darülfünunu, Azərbaycan Ali Pedaqoji İnstitutu) ali təhsil almaları olmuşdur. Bu, həmin dövr üçün qadın təhsil səviyyəsinin keyfiyyət sıçrayışı hesab edilə bilər.

İrəvan qadın maarifçilərinin fəaliyyəti yalnız təhsil verməklə məhdudlaşmırdı. Onlar eyni zamanda müxtəlif təşkilatların qurucuları (Bülbül Kazımova məktəblərin və klubların əsasını qoyurdu), inzibati rəhbərlər (Rəziyə Abdullayeva məktəb direktoru kimi), siyasi-dövlət xadimləri (R.Abdullayeva, SSRİ Ali Sovetinin deputatı kimi, K. Məmmədova, şəhər soveti deputatı kimi), mətbuat fəalları (S.Bağırova "Qızıl şəfəq" qəzetində bədii nümunələr çap etdirirdi), mədəni-maarif təşkilatçıları (F.Əfəndiyeva, S.Qocayeva, K.Məmmədova qadın klubu fəalları kimi) idilər (Zeynalov, 2013). Bu çoxsahəlilik onların pedaqoji-mədəni miqyasının nə qədər geniş olduğunu göstərir. 1948-ci il deportasiyası bu nəslin başqa bir tarixi sınağı olmuşdur. Tacirə Bağırova, Rəziyə İsmayılova kimi pedaqoqlar öz yurdlarından didərgin salınmış, lakin pedaqoji fəaliyyətlərini Bakıda davam etdirməyə müyəssər olmuşlardır.

**Nəticə**

İrəvan maarif mühitindəki qadın maarifçilər Azərbaycan təhsil tarixində özünəməxsus və qiymətli iz qoymuşlar. Tərlan xanım Sultanovadan başlayaraq Bülbül Kazımova, Tacirə Bağırova, Rəziyə Abdullayeva və başqa qadın pedaqoqların timsalında bu nəsil Azərbaycan qadın hərəkatının regional inkişaf modelini ortaya qoymuşdur. Onların fəaliyyəti həm tədris-pedaqoji, həm ictimai-mədəni, həm də siyasi-dövlət sahələrini əhatə etmişdir. Tədqiqatın əsas nəticəsi, bu nəslin ömürlük pedaqoji sədaqət, çoxsahəli ictimai fəaliyyət və 1937-38-ci il repressiyalarına və 1948-ci il deportasiyasına baxmayaraq peşəkar fəaliyyətin davamlılığı prinsipləri üzərində qurulmuş özünəməxsus bir nəsil olmasıdır.

Bu maarifçi-qadınların fəaliyyətinin müasir əhəmiyyəti də xüsusi qeyd edilməlidir. Onların təcrübəsi müasir Azərbaycan təhsil sistemi və qadın hərəkatı üçün dəyərli istinad bazası rolunu oynayır. İlk

olaraq, qadın təhsili siyasətinin formalaşdırılmasında onların təcrübəsi tarixi əsas verir, onlar mühafizəkar mühitdə qadın təhsilinin necə qurulması, mühafizəkar etirazların necə dəf edilməsi, qadın müəllim kadrlarının necə yetişdirilməsi sahəsində konkret praktik dərslər vermişlərdir. Həmçinin, müəllim peşəsinin sosial nüfuzunun gücləndirilməsi məsələsində onların ömürlük sədaqət nümunələri təlim-tərbiyə işinin əsas dəyər kimi qəbul edilməsinin müsbət təsirini göstərir. Son olaraq, məktəb-icma əlaqələrinin möhkəmləndirilməsi və qadın klubu kimi məktəbdənkənar mədəni-maarif strukturlarının yaradılması ideyaları müasir Azərbaycan təhsil sistemində geniş tətbiq tapa bilər.

Beləliklə, İrəvan maarif mühitindəki qadın maarifçilər Azərbaycan qadın təhsil tarixinin az tədqiq olunmuş, lakin son dərəcə əhəmiyyətli bir səhifəsini təşkil edirlər. Onların həyatı və fəaliyyəti həm tarixi-mədəni miras, həm də müasir Azərbaycan təhsil və qadın siyasəti üçün davamlı və dəyərli istinad bazasıdır. Bu istiqamətdə aparılacaq gələcək tədqiqatlar isə həm Azərbaycan pedaqogika tarixinin, həm də Qərbi Azərbaycanın etno-mədəni mirasının daha dolğun bərpasına xidmət edəcəkdir.

**Ədəbiyyat**


1. Allahverdiyev, C. (2024). *Qərbi Azərbaycan mətbuatı tarixi.* Qərbi Azərbaycan İcması nəşriyyatı.
2. Bayramov, İ. M. (2023). *Qədim Azərbaycan şəhəri İrəvan.* Iksad nəşriyyatı.
3. Cəfərov, C. Ə. və Allahverdiyev, C. V. (2017). *Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi.* “ORXAN NPM” nəşriyyatı.
4. Cəfərova, A. (2023). *Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar.* I kitab.
5. Həsənova, K. N. və Allahverdiyev, C. V. (2024). *Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi: [1924-1948].* Ases Yayınevi.
6. *İrəvan ensiklopedik foto-toplusu.* (2024). I cild. Qərbi Azərbaycan İcması nəşriyyatı.
7. Məhərrəmov, Z. H. (2010). *İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit).* Nurlan.
8. Məhərrəmov, Z. H. (2018). *İrəvan ədəbi mühiti (1800-1920-ci illər). Monoqrafiya.* ADPU nəşriyyatı.
9. Mərdanov, M. C. (2011). *Azərbaycan təhsil tarixi. Üç cilddə.* Təhsil.
10. Rüstəmov, F. A. (2018). *Azərbaycan pedaqogikaşünaslığı.* Elm və təhsil.
11. Rüstəmov, F. A. (2022). *İrəvan müəllimlər seminariyası və onun məzunları.* Elm və təhsil.
12. Zeynalov, Ə. M. (2013). *İrəvan ziyalıları.* Təhsil.